**Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

# REGİON




**№ 180 (1308) 30 sentyabr - 1 oktyabr 2016-cı il**

# AĞCABƏDİNİN AĞ GÜNLƏRİ

(əvvəli ötən saylarımızda)

**Faktiki olaraq bu gün Ağcabədidə çalışan həkimlər peşəkarlığı, onların öz biliklərini artırmaq istəkləri göstərilən xidmətin nəticəsində özünü büruzə verir. Bax, bu mənada rayon ərazisində məskunlaşmış - rayon əhalisi onlarla birlikdə artıq Ağcabədi sakininə çevrilmiş - məcburi köçkün soydaşlarımıza öz isti qucaqlarını açmaqla bahəm, həm də onların təhsil, səhiyyə, mədəniyyət sahəsində olan tələbatlarının da aradan qaldırılmasında qayğılarını əsirgəmirlər.**

> **"Azərbaycanın bugünkü inkişafı, Azərbaycandakı bugünkü həyat səviyyəsi bizim gördüyümüz böyük işlərdən xəbər verir. Biz hamımız birlikdə Azərbaycanı daha da gözəlləşdirmək və Azərbaycan insanının bütün problemlərini çözmək üçün əlbir olmalıyıq. Məhz bizim birliyimiz digər problemlərimizin də tezliklə aradan qaldırılmasına öz töhfəsini verəcək".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Birmənalı şəkildə qeyd etmək olar ki, bu gün Ağcabədidə yaradılan tibbi şəraitin imkanları hesabına müxtəlif xəstəliklərin qarşısının alınması istiqamətində köklü işlər görülübdü. Faktiki olaraq ötən il demək olar ki, şəhərdə bir nəfər də olsun ana ölümü qeydə alınmamış, uşaq ölümü isə öncəki illərlə müqayisədə xeyli azalmışdı. Bunun da əsas səbəbi təbii ki, məsuliyyət və nəzarət prinsipinin güclü olmasıdır. Ağcabədi şəhərinə həm də artıq rayonun hüdudlarından kənardan da xəstələrin müayinəyə üz tutması, müalicəyə maraq göstərməsi halları xeyli artıbdır. Bunun da əsas səbəbləri təbii ki, həm tibbi personalın, həm də bu personalın istifadə etdiyi tibbi avadanlıqların kəmiyyət və keyfiyyətinin yüksəlməsidir. Yəni həkimlər öz üzərlərində çalışıb tibbi nailiyyətləri mənimsəməklə bahəm, həm də müasir tibbi avadanlıqlardan peşəkarlıqla istifadə etməyi də mənimsəyirlər. Elə buradaca onu da xatırladaq ki, rayonda xəstəxanalırn təmir tikintisi işləri də müvəffəqiyyətlə aparılır.



İnsanların sağlamlığının əsas şərtlərindən biri də onların istirahətlərini düzgün təşkil etmələridi. Bunun üçün şəhərdə yaradılan şərait doğrudan-doğruya ürəkaçandı. Çünki şəhər mərkəzində salınmış parklar, meydanlar və bu guşələrdə qurulmuş texniki avadanlıqlar, yaradılmış şərait oraya üz tutanlara xoş anlar bəxş edir. Üstəlik rayon Mədəniyyət və Turizm Şöbəsi öz daxili potensialı hesabına müxtəlif tədbirlər təşkil edir. Həmin əyləncəli, düşündürücü kütləvi tədbirlər də təbii ki, insanlara xoş ovqat yaşadır. Burada onu da yada salmaq gərəkdir ki, rayonda kitabxanaların, onların filiallarının fəaliyyət göstərməsi, klub və mədəniyyət evinin, musiqi məktəblərinin, tarixi-diyarşünaslıq muzeyinin, həmçinin Heydər Əliyev Mərkəzinin, Həmidə xanım Məmmədquluzadənin ev muzeyinin, eləcə də rəsm qalareyasının, Üzeyir Hacıbəyov adına Qarabağ Muğam Mərkəzinin öz qaplarını sakinlərin üzünə açması rayondakı mədəni həyatın müxtəlif məqamlarından xəbər verir. Ümumiyyətlə rayon mərkəzində və onun kəndlərində fəaliyyət göstərən klubların, kitabxanaların və digər mədəniyyət mərkəzlərinin planauyğun şəkildə insanları öz ətrafında birləşdirməsi Ağcabədi şəhərində həyata keçirilən həmin o böyük və uğurlu işlərin sırasından xəbər verir. Məhz bu uğurlu inkişafı özünün rayona hər səfərində qeyd edən Azərbaycan prezidenti cənab İlham Əliyev bildirmişdi ki, "Azərbaycanın bugünkü inkişafı, Azərbaycandakı bugünkü həyat səviyyəsi bizim gördüyümüz böyük işlərdən xəbər verir. Biz hamımız birlikdə Azərbaycanı daha da gözəlləşdirmək və Azərbaycan insanının bütün problemlərini çözmək üçün əlbir olmalıyıq. Məhz bizim birliyimiz digər problemlərimizin də tezliklə aradan qaldırılmasına öz töhfəsini verəcək".



Həqiqətən də bu gün Ağcabədi şəhərində gerçəkləşdirilən işlər arasında sakinlərin qaz, su, elektrik enerjisinə tələbatı da həm rayon rəhbərliyinin, yəni icra hakimiyyətinin başçısı Şahin Məmmədovun və onun komandasının, həm də şəhər rəhbərliyinin xüsusi diqqət yetirdiyi məsələlrdən biridi. Əgər faktlara müraciət etsək, onda görərik ki, ötən il Ağcabədi şəhərində əhalinin qaz təminatını daha da yaxşılaşdırmaq üçün "Azərqaz" İstehsalat Birliyinin Tərtər Regional Qaz İstismarı İdarəsinin Ağcabədi xidmət sahəsi şəhərin təqribən 8300 abonentinə xidmət göstərmişdi. Bu da təkcə görülən işin bir hisəsidi. Çünki həmin xidmət sahəsi əhali ilə yanaşı, həm də qeyri-əhali abonentlərinə də xidmət etmişdi ki, bu da şəhərin sosial məişət obyektləridi. Yəni məktəblər, mehmanxana, xəstəxana və sairə bu sıraya daxildi. Göründüyü kimi, şəhər əhalisinin qaza olan ehtiyacını tam şəkildə ödəmək və yaxud da bunu xeyli yaxşılaşdırmaq o qədər də asa niş olmasa da, rayon rəhbərliyinin müdaxiləsi və konkret nəzarəti altında müəyyən uğurlara imza atılıbdı və həmin uğurlar sırasına qaz təchizatını daha da yaxşılaşdırmaq məqsədi ilə şəhərin küçə və prospektlərində aparılan işləri xüsusi qeyd etmək olar. Təbii ki, həmin işlərin əsas mahiyyəti də boruların çəkilməsi, köhnələrin yeniləri ilə əvəz edilməsi, sayğacların qurulması nəzərdə tutulur.

**(ardı var)**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ